**“Bakalavriat *(əsas (baza ali) tibb təhsili)* təhsilinin məzmunu və təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.12-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Bakalavriat *(əsas (baza ali) tibb təhsili)* təhsilinin məzmunu və təşkili Qaydaları” təsdiq edilsin (əlavə olunur).

*1-1. Bu Qaydalarla ali təhsilin bakalavriat səviyyəsi üçün müəyyən edilmiş müddəalar əsas (baza ali) tibb təhsilinə onun xüsusiyyətləri nəzərə alınmaqla şamil edilir.*[2]

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 24 iyun 2010-cu il
№ 117

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Bakalavriat *(əsas (baza ali) tibb təhsili)* təhsilinin məzmunu və təşkili**

# Q A Y D A L A R I [3]

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun hazırlanmışdır və dövlət standartları əsasında ali təhsilin bakalavriat səviyyəsində təhsilin məzmunu və təşkili qaydalarını tənzimləyir.

1.2. Bakalavr hazırlığı ali təhsilin birinci səviyyəsidir və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş bakalavr ixtisaslarının (proqramlarının) təsnifatına uyğun müvafiq ixtisaslar üzrə genişprofilli mütəxəssis hazırlığının həyata keçirilməsini təmin edir.

1.3. Bu Qaydalar tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublikanın bütün ali təhsil müəssisələrinə şamil edilməklə, bakalavriat səviyyəsində təhsilin məzmununa, ixtisaslar üzrə müvafiq təhsil proqramlarına, eləcə də təhsilalanların hazırlıq səviyyəsinə qoyulan tələbləri müəyyənləşdirir.

1.4. Bu Qaydalar bakalavr hazırlığının səviyyəsinə ümumi tələblər qoymaqla, ali təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsinə, məsuliyyətin, eləcə də kadr hazırlığının səmərəliliyinin artırılmasına, tədris-metodiki təminatın yaxşılaşdırılmasına, təhsilalanların attestasiyasının şəffaflığına, təhsilin keyfiyyət səviyyəsinin ölkədə qəbul olunan təhsil *və peşə* standartları əsasında beynəlxalq və Ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılması şərtilə, respublikanın ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasına və ölkəmizdə verilmiş təhsil sənədlərinin beynəlxalq təhsil məkanında tanınmasına şərait yaradır.[4]

1.5. Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta-ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə genişprofilli ali təhsilli mütəxəssislər hazırlanır. Bakalavriat təhsili başa çatmış ali təhsildir.

1.6. *Bakalavriat səviyyəsində əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddəti 4-5 ildir (qiyabi forma üzrə təhsil müddəti əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddətindən bir il artıqdır). Əsas (baza ali) tibb təhsili səviyyəsində əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddəti 5-6 ildir. Təhsilin normativ müddəti ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyənləşdirilir. Bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində əyani təhsilalma formasının tədrisə qismən cəlb olunma (parttime) növü üzrə isə təhsilin müddəti təhsilalanın fərdi tədris planına uyğun olaraq müəyyənləşdirilir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Heydər Əliyev adına Hərbi İnstituta qəbul olunduqdan sonra əsas təhsil proqramlarının icrasına başlamazdan əvvəl bütün təhsilalanlara, yaxud komandanlığın qərarı ilə təhsilalanların bir qisminə xarici dillərin dərindən öyrədilməsi və zəruri olan digər fənlərin əsaslarının tədrisi*

*məqsədilə Azərbaycan Respublikası müdafiə nazirinin qərarı ilə 1 (bir) tədris ili müddətində hazırlıq kursu təşkil edilir. Hazırlıq kursunun proqramını Azərbaycan Respublikasının müdafiə naziri təsdiq edir. Bilik və bacarıqların qiymətləndirilməsi çoxballı (100 ballı) sistemlə həyata keçirilir. Kursun proqramını bu və ya digər səbəblərdən yerinə yetirməyən və ya müvəffəqiyyət qazanmayan təhsilalan xüsusi təyinatlı ali təhsil müəssisəsindən xaric edilir.*[5]

Bakalavriatı bitirən məzunlara "bakalavr", *əsas (baza ali) tibb təhsilini bitirən məzunlara isə "həkim"* ali peşə-ixtisas dərəcəsi verilir.[6]

Bakalavriat təhsili almış məzun *elmi müəssisə və təşkilatlarda* və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət istisna olmaqla, bütün digər sahələrdə əmək fəaliyyəti ilə məşğul ola bilər. Bu təhsil səviyyəsini bitirən şəxslər təhsillərini magistratura səviyyəsində davam etdirə bilərlər. Bakalavriat səviyyəsində əyani *(tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime)*, qiyabi *və distant (məsafədən)* təhsilalma formaları müəyyən edilir. *Əsas (baza ali) tibb təhsili yalnız əyani (tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime) təhsilalma forması ilə həyata keçirilir.* Distant *(məsafədən)* formada bakalavr hazırlığı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunan *əsasnamə* əsasında həyata keçirilir.[7]

1.7. Bakalavr hazırlığı ali təhsilin dövlət standartının tələblərinə uyğun ayrı-ayrı ixtisaslar üzrə hazırlanmış təhsil proqramları əsasında həyata keçirilir.

1.8. Bakalavriat təhsili ödənişli *əsasla və dövlət sifarişi əsasında* həyata keçirilir.[8]

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər dövlət, bələdiyyə və özəl orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. *Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.*[9]

1.9. Bakalavriata tələbə qəbulu Azərbaycan Respublikasının *Nazirlər Kabineti* tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.[10]

1.10. Xarici ölkə vətəndaşlarının bakalavriata qəbulu müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

## 2. Bakalavriat səviyyəsində təhsilin məzmununa və tədris prosesinin təşkilinə qoyulan tələblər

2.1. Bakalavriat — ali təhsilin birinci səviyyəsinin tələblərinə uyğun genişprofilli mütəxəssis hazırlığını təmin edən təhsil prosesidir.

2.2. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavr hazırlığı ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları, onlara müvafiq hazırlanmış tədris planları, fənlər üzrə işçi tədris proqramları (sillabuslar) və digər normativ sənədlər (qiymətləndirmə qaydaları, fərdi tədris planları, dərs cədvəlləri, imtahan cədvəlləri, dərslərin reqlamentləri, təcrübələrin keçirilməsi qaydaları və s.) əsasında həyata keçirilir.

2.3. Bakalavr təhsilinin məzmunu tədris prosesinin planlaşdırılmasını, onun həyata keçirilməsinin forma və metodlarını, tədris yükünün həcmini, tədris mərhələlərinin (semestrlərin) müddətini, tədris növlərini (mühazirə, məşğələ,

laboratoriya və s.), ayrı-ayrı fənlərin həcmini və ixtisaslar üzrə təhsil proqramlarına qoyulan tələbləri əhatə edir.

Tədris prosesinin planlaşdırılması və təşkili tədris planları (nümunəvi işçi və fərdi) və fənlər üzrə işçi proqramları əsasında həyata keçirilir. Həmin sənədlərin forması və strukturu ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

*Təhsil proqramlarında göstərilən fənlər üzrə proqramlar ali təhsil müəssisələri tərəfindən hazırlanır və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilir, tədris planlarına təhsil müəssisələri tərəfindən daxil edilən seçmə fənlər üzrə proqramlar isə təhsil müəssisələri tərəfindən təsdiq edilir.* Fənn proqramları əsasında işçi proqramlar (sillabuslar) hazırlanır və ali təhsil müəssisələri tərəfindən təsdiq edilir.[11]

İşçi tədris proqramı (sillabus) — fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin müstəqil işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, aralıq qiymətləndirmə cədvəlini, istifadə olunan ədəbiyyatın siyahısını özündə əks etdirən sənəddir.

2.4. Bakalavriat səviyyəsində tədrisin təşkili ali təhsil pilləsinin dövlət standartının tələblərinə uyğun Azərbaycan Respublikasının *Nazirlər Kabineti* tərəfindən təsdiq edilmiş qaydalar əsasında kredit sistemi (Avropa ölkələrində tətbiq olunan Avropa Kredit Transfer Sistemi — AKTS) ilə həyata keçirilir.[12]

2.5. Bakalavriat səviyyəsində tələbənin fənn üzrə tədris işinin həcminin vaxt ölçüsü kredit vahidləri ilə müəyyənləşdirilir. Bir kredit 30 saata ~~(15 auditoriya və 15 tələbənin sərbəst işi)~~ bərabərdir. Tədris planlarında nəzərdə tutulmuş hər bir fənnin tədrisi bir semestrdə başa çatır və imtahanla yekunlaşır (bədən tərbiyəsi fənni istisna olmaqla). Fənlərin adları tədris planlarında təkrarlana bilməz (məsələn, "Fizika" fənni iki semestrdə tədris olunursa, bu fənn ilk semestrdə "Fizika-1", sonrakı semestrdə isə "Fizika-2" kimi adlandırılmalıdır).[13]

2.6. Tələbələrin fənlər üzrə attestasiyası (biliyinin qiymətləndirilməsi) Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydada çoxballı (100 ballı) sistemlə həyata keçirilir.

2.7. Tədris ili, bir qayda olaraq, iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 (altı) həftədən çox olmayaraq, yay semestri də təşkil oluna bilər.

2.8. Əyani təhsil forması üzrə tədris ilinin müddəti 40 həftədir. Hər semestr 20 həftədən (o cümlədən 5 həftə imtahan sessiyası) ibarətdir. Qiyabi təhsil forması üzrə isə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən 1 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilir.[14]

2.9. Tələbənin auditoriya və auditoriyadankənar həftəlik yükünün həcmi 45 saatdır. Bu zaman auditoriya saatları 30-dan çox olmamalıdır. *Əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə məcburi auditoriya dərslərinin maksimal həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları ilə, tədrisə qismən cəlb olunma (parttime) növü üzrə isə ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları və təhsilalanın fərdi tədris planına uyğun olaraq müəyyənləşdirilir.* Qiyabi forma üzrə isə tələbələrin auditoriya

dərslərinin həcmi ildə 180-240 saat nəzərdə tutulur. Hər tədris ilində təlim müddəti sentyabrın 15-dən başlanır və ixtisas üzrə tədris planına müvafiq olaraq yekunlaşır.[15]

2.10. Bir akademik saat 45 dəqiqəyə bərabərdir. Bütün növ dərslər üçün 2 akademik saat müəyyənləşdirilir. Akademik saatlararası fasilə 5 dəqiqədən az olmamalıdır. Tibb ixtisasının klinik fənlərində dərslər üçün ayrılan akademik saatlar ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir.

2.11. Bakalavriat səviyyəsində bütün təlim müddətində təcrübəyə 8-18 həftə ayrılır. İxtisaslardan asılı olaraq, təcrübənin müddəti ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir və tədris planında öz əksini tapır.

2.12. Hər tədris ilində tətil müddəti 8-12 həftə müəyyənləşdirilir. Bu zaman qış tətili 2 həftədən az olmamalıdır. Xüsusi təyinatlı ali təhsil müəssisələrində qeyd olunan müddətlər bu tipli ali təhsil müəssisələrinin tabeliyində olduğu nazirlik və təşkilatların müvafiq normativ sənədləri ilə müəyyənləşdirilir.

2.13. Bakalavriat səviyyəsində ixtisaslar üzrə təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır.

2.14. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr yekun dövlət attestasiyasına buraxılırlar.

2.15. Yekun attestasiya bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədir.

2.16. Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanı (fənlərarası) və ya buraxılış işinin müdafiəsindən ibarətdir.

2.17. İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriat səviyyəsində 240-300 kredit (*əsas (baza ali) tibb təhsili səviyyəsində* 300-360 kredit) müəyyənləşdirilir. İxtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Ali təhsil müəssisələrində bakalavriat səviyyəsinin tədris proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında "bakalavr *(əsas (baza ali) tibb təhsilində "həkim")*" ali peşə-ixtisas dərəcəsi verilir.[16]

2.18. Yekun attestasiyanın təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının *Elm və Təhsil Nazirliyi* tərəfindən müəyyənləşdirilir.[17]

2.19. Bakalavriat səviyyəsini bu və ya digər səbəbdən başa vurmayan şəxslərə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada müvafiq arayış verilir. Arayışın forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

2.20. Tələbələrin peşə maraqlarını təmin etmək məqsədi ilə tədris planlarına seçmə fənlər daxil edilir.

2.21. Bakalavriat səviyyəsində təhsilin məzmunu bir-biri ilə əlaqəli nəzəri və təcrübi hazırlıqla müəyyənləşdirilir.

Bakalavrın nəzəri hazırlığı humanitar və ixtisasın peşə hazırlığı fənlərinin mühazirə, məsləhət, məşğələ, sərbəst iş və digər şəkildə öyrənilməsi ilə təmin edilir.

Bakalavrın praktiki hazırlığı nəzəri biliklərin laboratoriya, məşğələ, tədris və elmi tədqiqat işləri, kurs işi və kurs layihəsi, tədris və istehsalat təcrübələri, həmçinin buraxılış işlərinin yerinə yetirilməsi ilə təmin edilir.

2.22. Kredit sistemi ilə tədrisin təşkilində tələbənin sərbəst işi mühüm əhəmiyyət kəsb etməklə, mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

~~Tələbənin sərbəst işinə ayrılan vaxtın həcmi fənnin mənimsənilməsinə ayrılan ümumi vaxtın 50 faizindən az olmamalıdır.~~

~~Tələbənin sərbəst işi müəllimin auditoriyadankənar rəhbərliyi ilə və müstəqil şəkildə həyata keçirilir. Müəllimin rəhbərliyi ilə yerinə yetirilən sərbəst işin həcmi sərbəst iş üçün ayrılmış vaxtın 50 faizini təşkil etməlidir.~~

Müəllimin rəhbərliyi ilə aparılan sərbəst iş cari məsləhətlər, referat və ev tapşırıqlarının yoxlanılmasından, eləcə də fənnin mənimsənilməsinə dair tapşırıq və tövsiyələrin verilməsindən və s. ibarətdir.

~~Tələbələrin sərbəst işlərinin təşkili Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş müvafiq qaydalarla tənzimlənir.~~[18]

2.23. Bakalavriat səviyyəsi üzrə təhsil proqramlarında aşağıdakı fənn bölümləri nəzərdə tutulur:

- humanitar fənlər;
- ixtisasın peşə hazırlığı fənləri.

Humanitar fənn bölümü sosial idrakın müxtəlif sahələri üzrə elmi dünyagörüşlərinin formalaşmasını təmin etməlidir.

İxtisasın peşə hazırlığı fənləri ixtisasa dair standart və qeyri-standart məsələləri həll etmək üçün lazımi bilik, bacarıq və vərdişlərin əldə olunmasını təmin etməlidir.

Ümumi auditoriya saatlarının 15-20 faizi *(əsas (baza ali) tibb təhsilində 5-10 faizi)* humanitar fənlərin, 80-85 faizi *(əsas (baza ali) tibb təhsilində 90-95 faizi)* isə peşə hazırlığını təmin edən fənlərin tədrisinə ayrılır.[19]

Humanitar fənn bölümünə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dili" (xarici dildə təhsil alanlar üçün), "Xarici dil" fənləri daxildir.

2.24. Bakalavr təhsil proqramlarının fənn bölümlərinə seçmə fənlər daxildir. Seçmə fənlərə ayrılan saatların həcmi ümumi saat miqdarının 25-30 faizini *(əsas (baza ali) tibb təhsilində 10-15 faizini)* təşkil edir. Həmin fənlər təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.[20]

2.25. Ali təhsil müəssisələri təhsil proqramında nəzərdə tutulmuş illik orta dərs yükü həddini və təlimin minimum məzmununu saxlamaqla, təhsil materialının mənimsənilməsinə ayrılmış saatların həcmini fənn bölümləri arasında 5 faiz, fənn bölümləri daxilində isə 20 faizə qədər dəyişə bilər.

2.26. Bakalavriat səviyyəsində təkrar ali təhsil alanlar üçün ali təhsil müəssisəsi əsas təhsil proqramlarına uyğun həmin ixtisas üzrə xüsusi (qısaldılmış) proqramlar da tətbiq edə bilər.

Xüsusi (qısaldılmış) təhsil proqramları müvafiq ixtisaslar üzrə ali təhsil proqramlarının bazaları əsasında tərtib olunur.

Bu proqramlar üzrə təhsil qısaldılmış müddətdə başa çatdırılır. Təhsil proqramlarına yalnız ixtisasın peşə hazırlığı fənləri daxil edilir.

Xüsusi (qısaldılmış) proqramla təhsilalanların əvvəllər ayrı-ayrı fənlərdən (məzmunda dəyişiklik olmadığı halda) aldıqları qiymətlər nəzərə alına bilər.

2.27. Orta ixtisas təhsili müəssisələrini yüksək nəticələrlə başa vuran və "subbakalavr" dərəcəsi alan şəxslər bakalavr səviyyəsində təhsillərini davam

etdirdikdə, orta ixtisas təhsili pilləsində müvafiq fənlər üzrə onların topladıqları kreditlər müəyyən olunmuş qaydada ali təhsil müəssisəsi tərəfindən nəzərə alınır.

## 3. Bakalavr hazırlığında resurs təminatına qoyulan tələblər

3.1. Bakalavriat səviyyəsində ixtisaslar üzrə təhsil proqramlarını həyata keçirən professor-müəllim heyətinin ixtisası, elmi adı və dərəcəsi, elmi tədqiqat işlərinin yönümü tədris etdikləri fənnə uyğun olmalıdır.

3.2. Bakalavriat səviyyəsində təhsil proqramlarının həyata keçirilməsinin əsas şərti professor-müəllim heyətinin ən azı 50 faizinin elmi adı və elmi dərəcəsinin olması, o cümlədən 10 faizinin elmlər doktoru, professor olmasıdır.

3.3. Bakalavriat səviyyəsində təhsil proqramlarının elmi-metodiki, informativ, maddi-texniki vəsaitlərlə təminatı lisenziya və akkreditasiyaya qoyulan normativ tələblərə uyğun olmalıdır.

## 4. Bakalavr dərəcəsi almış məzunun hazırlıq səviyyəsinə qoyulan tələblər

4.1. "Bakalavr" dərəcəsi almış məzunlar:

- təhsil aldıqları ixtisas üzrə təhsil proqramı əsasında qazanılmış bilik və bacarıqlarını əmək fəaliyyətinin müxtəlif sahələrində tətbiq etməyi bacarmalı;
- humanitar və ixtisasın peşə hazırlığı sahəsində əsas bilikləri mənimsəməli, onlardan peşə və sosial fəaliyyətin müxtəlif sahələrində istifadə etməyi, sosial əhəmiyyətli məsələləri və prosesləri araşdırmağı bacarmalı;
- təhsil proqramına uyğun tədris olunan fənlər üzrə müvafiq hazırlığa malik olmalı, qazanılmış nəzəri bilikləri təcrübədə tətbiq etməyi bacarmalı;
- əmək fəaliyyətində ixtisasa dair məsələləri həll etmək bacarığına malik olmalı;
- peşə fəaliyyətində qarşıya çıxan məsələləri optimal həlletmə qabiliyyətinə malik olmalı;
- əmək fəaliyyətində informasiya və kommunikasiya texnologiyalarından istifadə etməyi bacarmalıdırlar.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 6 dekabr 2012-ci il tarixli **281** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 8 dekabr 2012-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 12, maddə 1345)**
2. 18 aprel 2014-cü il tarixli **107** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 20 aprel 2014-cü il, № 80, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 450)**
3. 23 dekabr 2016-cı il tarixli **523** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 27 dekabr 2016-cı il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2239**)
4. 28 aprel 2017-ci il tarixli **182** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 30 aprel 2017-ci il, № 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №4, maddə 665)**
5. 21 dekabr 2017-ci il tarixli **587** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 dekabr 2017-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №12, II kitab, maddə 2534)**
6. 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)**
7. 4 mart 2020-ci il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 mart 2020-ci il, № 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 341)**
8. 18 may 2020-ci il tarixli **179** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 may 2020-ci il, № 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 650)** *(Bu Qərar 2020-ci il oktyabrın 1-dək qüvvədədir.)*
9. 22 dekabr 2020-ci il tarixli **504** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 dekabr 2020-ci il, № 272, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, V kitab, maddə 1605)** *(Bu Qərar 2021-ci il yanvarın 1-dək qüvvədədir.)*
10. 22 fevral 2021-ci il tarixli **40** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 fevral 2021-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 2, maddə 205)**
11. 5 iyun 2021-ci il tarixli **158** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 9 iyun 2021-ci il, № 118, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, IV kitab, maddə 664)** *(Bu Qərar 2021-ci il oktyabrın 1-dək qüvvədədir.)*
12. 21 dekabr 2022-ci il tarixli **448** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 23 dekabr 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 12, maddə 1552)**
13. 22 sentyabr 2023-cü il tarixli **335** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 23 sentyabr 2023-cü il, "Xalq" qəzeti, 24 sentyabr 2023-cü il, № 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 9, maddə 1356)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə qərarın adına və 1-ci hissəsinə "**Bakalavriat**" sözündən sonra "**(əsas (baza ali) tibb təhsili)**" sözləri əlavə edilmişdir.

[2] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə yeni məzmunda 1-1-ci hissə əlavə edilmişdir.

[3] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın adına "**Bakalavriat**" sözündən sonra "**(əsas (baza ali) tibb təhsili)**" sözləri əlavə edilmişdir.

[4] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.4-cü bəndinə "**standartları**" sözündən əvvəl "**və peşə**" sözləri əlavə edilmişdir.

[5] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin birinci abzasının ikinci cümləsi üçüncü cümlə hesab edilmişdir və yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

4 mart 2020-ci il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 mart 2020-ci il, № 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 341)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bakalavriat səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 4-5 (qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır) ildir. *Əsas (baza ali) tibb təhsili səviyyəsində təhsilin normativ müddəti 5-6 ildir.* Bu müddət ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyənləşdirilir.~~

22 sentyabr 2023-cü il tarixli **335** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 23 sentyabr 2023-cü il, "Xalq" qəzeti, 24 sentyabr 2023-cü il, № 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 9, maddə 1356)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin birinci abzasına yeni məzmunda beşinci-səkkizinci cümlələr əlavə edilmişdir.

[6] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin ikinci abzasına "**bakalavr**" sözündən sonra "**, əsas (baza ali) tibb təhsilini bitirən məzunlara isə "həkim"** sözləri əlavə edilmişdir.

[7] 28 aprel 2017-ci il tarixli **182** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 30 aprel 2017-ci il, № 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №4, maddə 665)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin üçüncü abzasının birinci cümləsində "**elmi-tədqiqat**" sözləri "**elmi müəssisə və təşkilatlarda**" sözləri ilə əvəz edilmişdir.

8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №**

**11, maddə 2431)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin üçüncü abzasının dördüncü cümləsi beşinci cümlə hesab edilmişdir və yeni məzmunda dördüncü cümlə əlavə edilmişdir.

4 mart 2020-ci il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 mart 2020-ci il, № 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 341)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin üçüncü abzasında üçüncü cümləyə "**əyani**" sözündən sonra "**(tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime)**" sözləri əlavə edilmişdir və həmin cümlədə "**, distant və sərbəst (eksternat)**" sözləri "**və distant (məsafədən)**" sözləri ilə əvəz edilmişdir, dördüncü cümləyə "**əyani**" sözündən sonra "**(tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime)**" sözləri əlavə edilmişdir, beşinci cümlədə "**və eksternat**" sözləri "**(məsafədən)**" sözü ilə və "**əsasnamələr**" sözü "**əsasnamə**" sözü ilə əvəz edilmişdir.

[8] 4 mart 2020-ci il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 mart 2020-ci il, № 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 341)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.8-ci bəndinin birinci abzasında "**və ödənişsiz əsaslarla**" sözləri "**əsasla və dövlət sifarişi əsasında**" sözləri ilə əvəz edilmişdir.

[9] 18 aprel 2014-cü il tarixli **107** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 20 aprel 2014-cü il, № 80, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 450)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.8-ci bəndinə ikinci abzas əlavə edilmişdir.

22 fevral 2021-ci il tarixli **40** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 fevral 2021-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 2, maddə 205)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.8-ci bəndinin ikinci abzasına yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[10] 23 dekabr 2016-cı il tarixli **523** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 27 dekabr 2016-cı il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2239**) ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.9-cu bəndində "**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası**" sözləri "**Nazirlər Kabineti**" sözləri ilə əvəz edilmişdir.

[11] 4 mart 2020-ci il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 mart 2020-ci il, № 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 341)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.3-cü bəndin üçüncü abzasının birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Fənn proqramları ixtisaslar üzrə ali təhsil proqramlarının tələblərinə uyğun olaraq ali təhsil müəssisələri tərəfindən hazırlanır və müvafiq qaydada Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.~~

21 dekabr 2022-ci il tarixli **448** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 23 dekabr 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 12, maddə 1552)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.3-bəndinin üçüncü abzasının birinci cümləsində, 2.6-cı və 2.18-ci bəndlərində "**Təhsil**" sözü "**Elm və Təhsil**" sözləri ilə əvəz edilmişdir.

[12] 4 mart 2020-ci il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 mart 2020-ci il, № 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3,**

**maddə 341)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.4-cü bəndində "**Təhsil Nazirliyi**" sözləri "**Nazirlər Kabineti**" sözləri ilə əvəz edilmişdir.

[13] 6 dekabr 2012-ci il tarixli **281** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti 8 dekabr 2012-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 12, maddə 1345)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.5-ci bəndin ikinci cümləsindən "**(15 auditoriya və 15 tələbənin sərbəst işi)**" sözləri çıxarılmışdır.

[14] 6 dekabr 2012-ci il tarixli **281** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti 8 dekabr 2012-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 12, maddə 1345)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.8-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.8. Tədris ilinin müddəti 40 həftədir (o cümlədən 10 həftə imtahan sessiyaları). Hər semestr 20 həftədən (5 həftə imtahan sessiyasına ayrılır) ibarətdir.~~

[15] 4 mart 2020-ci il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 mart 2020-ci il, № 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 341)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.9-cu bəndinin üçüncü cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Əyani forma üzrə məcburi auditoriya dərslərinin maksimal həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları ilə müəyyənləşdirilir.~~

[16] 6 dekabr 2012-ci il tarixli **281** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti 8 dekabr 2012-ci il, № 274, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 12, maddə 1345)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.17-ci bəndin birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.17. Bakalavriat səviyyəsində tələbələrin topladığı kreditlərin sayı 200-dən az olmamalıdır.~~

8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.17-ci bəndinin birinci cümləsində "**tibb təhsilində**" sözləri "**əsas (baza ali) tibb təhsili səviyyəsində**" sözləri ilə əvəz edilmişdir və üçüncü cümləyə "**bakalavr**" sözündən sonra "**(əsas (baza ali) tibb təhsilində "həkim")**" sözləri əlavə edilmişdir.

[17] 21 dekabr 2017-ci il tarixli **587** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 dekabr 2017-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №12, II kitab, maddə 2534)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.18-ci bəndində "**Nazirlər Kabineti**" sözləri "**Təhsil Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[18] 4 mart 2020-ci il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 mart 2020-ci il, № 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 341)** ilə "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.22-ci bəndinin ikinci, üçüncü və beşinci abzasları çıxarılmışdır.

[19] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.23-cü bəndinin altıncı abzasına "**15-20 faizi**" sözlərindən sonra "**(əsas (baza ali) tibb təhsilində 5-10 faizi)**"

sözləri, "**80-85 faizi**" sözlərindən sonra "**(əsas (baza ali) tibb təhsilində 90-95 faizi)**" sözləri əlavə edilmişdir.

[20] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2431)** ilə "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.24-cü bəndinin ikinci cümləsinə "**25-30 faizini**" sözlərindən sonra "**(əsas (baza ali) tibb təhsilində 10-15 faizini)**" sözləri əlavə edilmişdir.